"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# TURİZMİN AZƏRBAYCAN REGİONLARININ MALİYYƏ DAYANIQLIĞINA TƏSİRİ

№2(13)-2025
səh. 83-99

Polad Orucov
Doktorant, İqtisadiyyat və Menecment Departamentinin
koordinatoru, Xəzər Universiteti

https://doi.org/10.30546/2790-2196.02.13.2025.3026

CC BY NC

polad.orujov@khazar.org

# TURİZMİN AZƏRBAYCAN REGİONLARININ MALİYYƏ DAYANIQLIĞINA TƏSİRİ

**Polad Orucov**

Doktorant, İqtisadiyyat və Menecment Departamentinin koordinatoru

Xəzər Universiteti

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasında turizmin inkişafının Balakən inzibati rayonunun maliyyə dayanıqlığına təsiri mexanizmləri təhlil edilir. Azərbaycanın büdcə gəlirləri, turizm sektorunun gəlirləri, dövlət və özəl investisiyaların həcmi arasındakı əlaqəni araşdırmaq üçün korrelyasiya modeli əsasında təhlildən istifadə olunmuşdur. Tədqiqatın əsas məqsədi turizmin iqtisadi artıma təsiri, Balakən rayonunun büdcə gəlirlərinin şaxələndirilməsində turizmin rolunun təhlili, dövlət və özəl investisiyaların və regional maliyyə sabitliyinin qarşılıqlı asılılığını təhlil etməkdir. Tədqiqatın nəticələri göstərir ki, turizmə yönəldilmiş dövlət və özəl investisiyalar və Azərbaycanda turizmdən əldə edilən gəlirlər arasında müsbət korrelyasiya var və bu dəyişənlər, ümumiyyətlə, regionların maliyyə dayanıqlığını formalaşdıran əsas iqtisadi determinantlardır. Balakən rayonu nümunəsində aparılan təhlillər göstərir ki, turizmin davamlı inkişafı yerli iqtisadiyyatın gəlir strukturunda mühüm paya malik olmaqla həm büdcə gəlirlərinin, həm də özəl kapitalın artımına birbaşa təsir göstərir. Turizmin sürətli inkişafına Azərbaycanın böyük turizm potensialına sahib olan regionlarından olan Balakənin iqtisadi artımını stimullaşdıra və büdcə sabitləşməsini təmin edə biləcək vacib strateji tendensiyalardan biri kimi baxılmalıdır.

**Açar sözlər:** Balakən, turizm, maliyyə dayanıqlığı, investisiya, büdcə gəlirləri, davamlı inkişaf.

**JEL kodu:** L83, R11, H7, C21

## GİRİŞ

Son illərdə Azərbaycan Respublikasında iqtisadi islahatlar və regional sosial-iqtisadi inkişafa dair Dövlət Proqramları milli iqtisadiyyatın şaxələndirilməsi, regional fərqlərin azaldılması və qeyri-neft sektorunun inkişafı kimi mühüm prioritetlərə yönəlmişdir. Bu vəziyyətdə turizm sənayesi iqtisadiyyatın ən sürətlə inkişaf edən və gəlirli sahələrindən biri kimi xüsusi əhəmiyyət kəsb edir [2]. Turizmin inkişafı yalnız ümumi iqtisadi artıma kömək etmir, həm də regional maliyyə sabitliyinə birbaşa töhfə verir, büdcə gəlirlərini artırır və məşğulluq səviyyəsinin artmasına kömək edir.

Azərbaycanın iqtisadiyyatı əsasən xammal ixracına, xüsusilə də karbohidrogen ehtiyatlarına əsaslanan modeli ilə səciyyələnmişdir. İqtisadi ədəbiyyatlarda resursyönlü

iqtisadiyyat anlayışı, ümumi daxili məhsulun (ÜDM), ixrac gəlirlərinin və fiskal daxilolmaların əhəmiyyətli hissəsinin təbii ehtiyatların hasilatı və satışı hesabına formalaşdığı ölkələrə aid edilir [14, s. 106–108]. Bu model qlobal əmtəə bazarlarında yüksək qiymət şəraitində sürətli iqtisadi artımı yaratsada, eyni zamanda milli iqtisadiyyatı xarici amillərə, qiymət dəyişkənliyinə və beynəlxalq bazarlarda müşahidə oluna bilən tənəzzüllərə qarşı həssas edir.

Bu həssaslığı aradan qaldırmaqdan ötrü Azərbaycanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Xüsusilə xidmət sektorunun aparıcı sahəlaindən olan turizmin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir, çünki bu sahə yüksək səviyyədə əlavə dəyər yarada bilir, məşğulluğun artırılması və regional inkişaf baxımından mühüm potensiala malikdir.

Qeyri-neft sektoru sahələri içərisində ən dinamik inkişaf edənlərdən biri olan turizm sahəsində fəaliyyət göstərən müəssisələrinin maliyyə dayanıqlığı maddi-texniki bazanın modernləşdirilməsinə investisiya qoymağa, xidmət sahəsində müasir texnologiyalardan istifadəyə və ümumilikdə bazarda rəqabət qabiliyyətinin artırılmasına imkanlar yaradır [7, s.4-8].

Turizm müəssisələrinin maliyyə fəaliyyəti isə bank xidmətlərindən istifadə, büdcə planlaşdırılması, investisiyaların cəlb edilməsi, əldə olunan gəlir və xərclərinin idarə edilməsi, subsidiyalar və qrantların tətbiqi, vergi güzəştləri və maliyyə risklərinin idarə olunması kimi komponentləri əhatə edir. Bu proseslərin düzgün strukturlaşdırılması turizm sənayesinin davamlı inkişafını, rəqabət qabiliyyətini və kapitalın daha çox dövriyyəsini təmin edir [15, s.7-17].

Turizmin maliyyələşdirilməsi aşağıdakı müxtəlif mənbələr vasitəsilə həyata keçirilir: dövlət büdcə ayırmaları və subsidiyaları, bank və qeyri-bank kredit təşkilatlarının maliyyə resursları, turist və əhali qrupu ödənişlərindən əldə edilən gəlir [10, s.55-62].

Turizm sənayesinin dinamik inkişafı ona ayrılan investisiyalardan qaynaqlanır. İnvestisiyalar yeni iş yerlərinin yaradılmasına, regional kapital axınlarının genişlənməsinə və digər iqtisadi və sosial sektorlara təsir göstərir. Eyni zamanda, bu sahədə turizm sənayesinə qoyulan investisiyalar istehsalın və iqtisadi fəaliyyətin artmasına səbəb olur [9 s.1669-1673].

Bu tədqiqatın məqsədi, Balakən inzibati rayonunda, turizmin maliyyə dayanıqlığına və maliyyə sabitliyinə təsir mexanizmlərini empirik şəkildə aşkar etməkdir. Məqalə giriş, ədəbiyyat icmalı, metodologiya, Balakəndə turizmin inkişafının müasir vəziyyəti, Azərbaycanda və eləcə də Balakən inzibati rayonundan turizmin inkişafına dair statsitik məlumatlar əsasında aparılmış Pirson korrelyasiya təhlili, müzakirə və nəticə kimi əsas bölmələrdən ibarətdir. Daha sonra isə Azərbaycanda büdcə gəlirləri, turizm sektorunun, xüsusilə turagent və turoperatorların və mehmanxana (hotel) və mehmanxana tipli müəssislərin əldə etdiyi gəlirlər, dövlət və özəl investisiyaların həcmi arasındakı əlaqəni araşdırmaq üçün korrelyasiya modeli əsasında təhlildən istifadə olunmuşdur. Nəticə bölməsində Balakən rayonunda turizmin dayanıqlı inkişafının və onun maliyyə sabitliyinin təmin olunması istiqamətində aparılmış tədqiqatın əsas nəticələri və təkliflər təqdim olunmuşdur.

# ƏDƏBİYYAT İCMALI

Turizmin regionların maliyyə dayanıqlığına təsiri sahəsində həm beynəlxalq, həm də milli səviyyələrdə müxtəlif metodologiyalarla tədqiqatlar aparılmış və turizmin iqtisadi artım, məşğulluq, investisiya və büdcə sabitliyi kimi amillərə təsir mexanizmləri aşkar edilmişdir.

Turizmin yerli iqtisadi və maliyyə sabitliyinə təsiri müasir elmi tədqiqatlarda hərtərəfli araşdırılır. Sərhədlərarası əməkdaşlığı və turizm siyasətini vurğulayan D. Timoti (2018), regional davamlı turizmin inkişafının dövlətlərarası əməkdaşlığa və institusional uyğunluğa bağlı olduğunu sübut edir [16, s.8-13].

Benesti və digərləri (2009) tərəfindən hazırlanmış Pirson korrelyasiya nəzəriyyəsi əmsalı turizm sənayesində iqtisadi göstəricilər arasında statistik qarşılıqlı asılılıqların təhlilində geniş tətbiq olunur. Metod turizmdə gəlirlər, investisiyalar və maliyyə sabitliyi kimi iqtisadi göstəricilər arasında qarşılıqlı əlaqələri qiymətləndirmək üçün güclü bir ölçü vasitəsi kimi qəbul edilmişdir [6, s.37-40].

Doshan, İsakova və Aydarov (2025) turizm və qonaqpərvərlik sektoru üçün maliyyə proseslərinin izlənməsinin və innovativ idarəetmənin əhəmiyyətinə toxunaraq, bu sektorda maliyyə sabitliyinin risklərin azaldılması və gəlirliliyin artırılması baxımından vacib olduğunu göstərirlər [8, s.70-79].

Balaguer və Cantavella-Jordá (2002) turizmin uzunmüddətli iqtisadi artımın müəyyənedicilərindən biri kimi funksiyasını sübut etmiş və İspaniya təcrübəsinə əsaslanaraq turizmə əsaslanan iqtisadi artım hipotezini təsdiqləmişdir. Müəlliflər qeyd edirlər ki, beynəlxalq turizmin davamlı inkişafı daha çox gəlir və məşğulluq vasitəsilə ölkənin iqtisadi artımına çoxmərhələli müsbət təsir göstərmişdir [5, s.877–884.].

Bakalo və digərləri (2025) yerli turizmin icmalarda iqtisadi və sosial tərəqqiyə təsirini nəzərdən keçirmiş və onun büdcədən gələn gəlirlərin artırılmasında və kiçik biznesin dəstəklənməsində mühüm rol oynadığını aşkar etmişlər [4, s.2-9].

Zelenska və Rusnak (2024) dövlət dəstəyini və yeni maliyyə mexanizmlərini turizm infrastrukturunun maliyyə imkanlarının vacibliyi üçün vurğulayırlar. Onlar klaster siyasəti yanaşmasının və maliyyə təşviqlərinin regional turizmin yenilənməsinə və yaradılmasına kömək etdiyinə inanırlar [17, s.257-266].

Obi, Addae-Ankrah və Sarpong-Kumankoma (2025) maliyyənin və valyutanın sabitliyinin turizmin iqtisadi artıma təsirinin əsas müəyyənediciləri olduğunu sübut etmişlər. Turizmin iqtisadi artımdan asılılığı əsasən maliyyə infrastrukturunun sağlamlığından asılıdır [11, s.2-8].

Şarpli və Telfer (2014) turizm və inkişaf konsepsiyasını nəzəri olaraq və aktuallaşdırmaqla turizmin yoxsulluğun azaldılmasında, sosial rifahın anlaşılmasında, mədəni irsin qorunmasında və iqlim dəyişikliyindəki rolunun tənqidi elmi təhlilini təqdim ediblər. Onların konseptual təhlili turizmi yalnız iqtisadi bir mülahizə kimi deyil, həm də sosial, ekoloji və institusional dəyişikliklərin hərəkətverici qüvvəsi kimi nəzərdən keçirir [13, s.112-202].

Samimi və Sadeqi (2013) turizm və turizmin inkişafı ilə əlaqəli birbaşa xarici investisiyalar (FDI) arasında uzunmüddətli səbəb-nəticə əlaqələrini müəyyən ediblər. Panel təhlili göstərib ki, turizmlə əlaqəli birbaşa xarici investisiyalar uzunmüddətli perspektivdə turizmin inkişafını təşviq edir və qarşılıqlı asılılığa gətirib çıxarır [12, p.59-68].

İmrani, Zeynalova və Babaxanov (2025) Azərbaycanla bağlı işlərində turizmə investisiya qoyuluşunun regionlarda kapital dövriyyəsinin və məşğulluğun artırılmasından əlavə, maliyyə sabitliyinin yaxşılaşdırılmasına da kömək etdiyini göstəriblər. Lakin regional fərqlərin mövcudluğu yönümlü turizm siyasətinə ehtiyac olduğunu təsdiqləyir [9, s.1673-1675].

Ümumiyyətlə, son elmi tədqiqatlar göstərir ki, turizmin regional iqtisadi strukturlarda maliyyə sabitliyinə təsiri çoxşaxəlidir və daha çox investisiya səviyyəsi, idarəetmənin effektivliyi, infrastrukturun inkişafı və dövlət dəstəyindən təsirlənir.

## METODOLOGİYA

Tədqiqatın metodologiyası empirik və analitik yanaşmaların sintezinə əsaslanır. Əsas məqsəd Pirsonun korrelyasiya əmsalından istifadə etməklə Azərbaycanda turizm sənayesində əldə edilmiş gəlirlər və iqtisadiyyata yönəldilmiş investisiyalar arasında əlaqə müəyyənləşdirmək və statistik etibarlılıq dərəcəsini qiymətləndirməkdir. Bu öz növbəsində turizmin Azərbaycanın şimal-qərb regionu olan Balakən inzibati rayonunun maliyyə dayanıqlılığına təsirini qiymətləndirməyə imkan verir.

Korrelyasiyada məlumatlar iki veriləndən, Azərbaycanda fəaliyyət göstərən turoperator və turagentliklərin, eləcə də, əsas yerləşdirmə müəssisələrin əldə etdikləri gəlirlərin cəmi, digəri isə ölkənin iqtisadiyyatına yatırılmış dövlət və özəl investisiyaların cəmindən ibarətdir. Son 24 ilin, 2001-ci ildən 2024-cü ilədək olan statsitik göstəricilərindən istifadə edərək investisiyaların artması ilə turizm gəlirlərinin artması arasında əlaqəni müəyyənləşdirmiş oluruq [6, s.39-40]:

$$r = \frac{\sum(x_i - \overline{x})(y_i - \overline{y})}{\sqrt{\sum(x_i - \overline{x})^2 \sum(y_i - \overline{y})^2}}$$

*r = korrelyasiya əmsalı*

$x_i$ *= nümunədəki x dəyişəninin dəyərləri*

$\overline{x}$ *= x dəyişəninin orta dəyəri*

$y_i$ *= nümunədəki y dəyişəninin dəyərləri*

$\overline{y}$ *= y dəyişəninin orta dəyəri*

Qeyd olunduğu kimi, verilmiş statistik məlumatlar 2001–2024-cü illəri əhatə edir və əsas etibarı ilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təqdim etdiyi göstəriciləridir.

Tədqiqatda aşağıdakı əsas hipotezlər irəli sürülmüşdür:

- H1: Turizm gəlirlərinin artımı regionların maliyyə sabitliyinə müsbət təsir göstərir.
- H2: Dövlət investisiyalarının artımı fiskal dayanıqlığı gücləndirir.
- H3: Özəl investisiyalar turizm gəlirləri ilə maliyyə sabitliyi arasında vasitəçi dəyişən rolunu oynayır.
- H4: Turizm məşğulluğundakı artım sosial rifah və büdcə gəlirləri üzərindən dolayı müsbət təsir yaradır.

Modelin etibarlılığı aşağıdakı düstur vasitəsilə korrelyasiya t dəyərinin (test statistikası) hesablanması ilə yoxlanılmışdır:

$$t = \frac{r}{\frac{\sqrt{1 - r^2} -}{\sqrt{(n-2)}}}$$

Bundan əlavə, məqalədə statistik məlumatların əsasında Balakən rayonunda turizm və maliyyə dayanıqlılığı arasında əlaqə təhlil edilmişdir. Bu nəticələr tədqiqatın əsas hipotezlərini təsdiqləyir və göstərir ki, Balakən rayonunda turizm sektorunun inkişafı regional büdcənin sabitliyinin əsas təminatçılarından biridir.

## Balakəndə turizmin inkişafının müasir vəziyyəti

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən, 2024-ci yekun göstəriciləri əsasən ölkəmizdə ÜDM 126 milyard manat olmuş, bundan 75 milyard manatı qeyri-neft ÜDM, əsas kapitala investisiya isə 21 milyard manat təşkil etmişdir. Bundan əlavə, əhalinin nominal gəlirləri 83 milyard manat, nominal orta aylıq əmək haqqı 1009.2 manat olub [1, s.4-5].

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi və təbii ehtiyatların ixracından asılılığı azaldılması baxımından turizm xüsusi əhəmiyyət kəsb edən iqtisadiyyat sahələrindən biridir. Uzun illərdir ki, dinamik olaraq inkişaf edən turizm sənayesi ölkə iqtisadiyyatın əsas sahələri arasında aparıcı mövqelərdən birini tutur və regionların inkişafında mühüm rol oynayır (Cədvəl 1).

**Cədvəl 1**. Azərbaycanda turizm agentliklərinin və tur operatorlarının maliyyə göstəriciləri

| *Göstərici* | 2024 | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|---|
| Səyahət agentliklərinin və turoperatorların sayı, vahid | 381 | 300 | 240 | 150 | 300 | 432 |
| Səyahət agentliklərinin və turoperatorların ümumi gəliri, min manat | 166 392,3 | 78 772,7 | 53 350,3 | 22 614,8 | 16 147,3 | 63 363,8 |
| Məhsul (xidmət) istehsalına çəkilən xərclər – cəmi, min manat | 143 849,8 | 57 019,1 | 42 585,5 | 19 641,0 | 21 899,7 | 50 400,0 |
| Satılmış tur paketlərinin dəyəri, min manat | 128 675,6 | 26 915,5 | 15 915,2 | 5 374,0 | 4 988,4 | 78 132,2 |
| Səyahət agentliklərinin və turoperatorların ümumi gəliri -cəmi, min manat | 166 392,3 | 78 772,7 | 53 350,3 | 22 614,8 | 16 147,3 | 63 363,8 |

Mənbə: [18].

Gürcüstanla həmsərhəd olan, güclü təbii-landşaft və mədəni irs potensialına malik Balakən rayonu turizm üçün strateji coğrafi mövqeyə malikdir. Balakən-Laqodexi sərhəd keçid məntəqəsinin mövcudluğu ərazidə həm daxili, həm də xarici turizm dövriyyəsinin artırılması üçün mühüm logistika imkanı yaradır. Turist axınının artması son bir neçə ildə yerli sahibkarlığın canlanmasına, kiçik müəssisələrin yaradılmasına və bələdiyyə gəlirlərinin artmasına müsbət təsir göstərmişdir.

Balakən, 934 $km^2$ əraziyə, 101 min nəfər əhaliyə malik olan inzibati rayon, Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşməklə, 1 şəhəri, 1 qəsəbəni, 57 kənd yaşayış məntəqəsini, 20 inzibati-ərazi vahidi və 20 bələdiyyəni, respublika ərazisinin 1%-ni, əhalisinin 0,9%-ni özündə birləşdirir. Əhalinin 15,7%-i şəhərlərdə, 84,2% kənd yaşayış məntəqələrində məkunlaşmışdır. Rayonda əhalinin sıxlığı hər $km^2$ 107 nəfər təşkil edir. Balakən rayonun relyefi yüksək dağlıq və dağətəyi hissələrə bölünməklə, rekreasiya baxımından zəngin estetik dağlıq təbi landşaftlara, mineral və termal bulaqlara, turizmin inkişafı baxımından isə çoxsaylı tarixi-etnoqrafik abidələrə malikdir [3, s.659].

Turizm sənayesi Balakəndə son 5 il ərzində daha sürətlə inkişaf edir. Yerli turist axınlarının artması ilə burada beynəlxalq turizmin inkişafı üçündə böyük perspektivlər var (cədvəl 2).

**Cədvəl 2.** Balakən rayonunda turizm göstəriciləri

| *Göstərici* | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlər müəssisələrin sayı, vahid | 3 | 3 | 3 | 3 | 3 |
| Otaqların sayı, vahid | 99 | 95 | 95 | 95 | 95 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 2363 | 755 | 781 | 3498 | 3296 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlər müəssisələrin gəlirləri, min AZN | 344.4 | 210.1 | 144.5 | 324.3 | 306.1 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlər müəssisələrin xərcləri, min AZN | 570.7 | 205.9 | 212.9 | 535.2 | 767.5 |
| İaşə dövriyyəsi, min AZN | 3855.1 | 3134.3 | 3703.2 | 5602.8 | 7408.0 |
| İaşə ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı, vahid | 135 | 201 | 210 | 219 | 228 |

Mənbə: [18].

Balakən rayonunda turizmin inkişafı yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də maliyyə sabitliyinin təminatçısı kimi çıxış edir. Balakən inzibati rayonunda turizmin maliyyə strukturu iki əsas istiqamət üzrə formalaşır: dövlət maliyyələşməsi və özəl investisiya mənbələri. Hər iki istiqamət bir-birini tamamlayan xarakter daşıyaraq regionda turizm infrastrukturunun, xidmət sektorunun və yerli iqtisadiyyatın davamlı inkişafına töhfə verir (cədvəl 3).

**Cədvəl 3.** Balakən rayonunda turizm gəlirləri

| *Göstərici* | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətlərinin məbləği, min manat | 5,948.9 | 3,344.4 | 3,847.7 | 5,927.1 | 7,714.1 | 9,115.8 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə xərcləri | 346.2 | 205.9 | 212.9 | 535.2 | 767.5 | 703.2 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə gəlirləri, min manat | 342.3 | 210.1 | 144.5 | 324.3 | 306.1 | 321.0 |

Mənbə: [18].

2023-cü ildə Balakən rayonunda əsas kapitala yönəldilən investisiyaların həcmi 16,1 milyon manat olmuş, rayon iqtisadiyyatına 3,1 milyon manat özəl investisiya cəlb edilmişdir. Hesabat dövründə Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara 20 layihə üzrə 469,0 min manat həcmində güzəştli kredit verilmiş, həmin sahibkarlar tərəfindən 23 yeni iş yeri yaradılmışdır [19].

Turizmin Balakənin maliyyə dayanıqlığına potensial töhfəsi yüksək səviyyədə reallaşdırılması üçün imkanlar mövcuddur. Əsas problemlər maliyyənin yetərincə səmərəli idarə olunmaması, özəl sektorun turizmdə qeyri-kafi iştirakı, turizm fəaliyyətinin mövsümiliyi və infrastrukturun inkişafı ilə bağlıdır.

Beləliklə, turizmin maliyyə mexanizmlərinin səmərəli təşkili yalnız qısamüddətli gəlir artımı ilə məhdudlaşmır, bu həm də yerli iqtisadi sabitlik və sosial rifah üçün strateji təməldir. Nəticə etibarilə, dövlət-özəl tərəfdaşlığı çərçivəsində turizm maliyyələşdirilməsi Azərbaycanın bölgələrinin, xüsusən də Balakən bölgəsinin davamlı inkişafını təmin etməkdə əhəmiyyətli rol oynayır.

## TƏHLİL VƏ MÜZAKİRƏ

Aydındır ki, turizm sənayesində gəlirləri tam olaraq hesablamaq çətindir. Rəsmi statistik məlumatlardan daha çox mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, eləcə də, turoperator və turagentliklərin gəlirlərini əsas götümək olar. Bunlardan istifadə etməklə ölkədə, və ya regionlarda turizmin maliyyə stabilliyinə təsirinin korrelyasiyasını hesablamaq olar. Burda əsas vacib məsələlərdən biri də iqtisadiyyata yönəldilmiş investisiyaların həcmidir.

Bütün bunları nəzərə almaqla, korrelyasiya aparmaq üçün aşağıdakı məlumatlardan istifadə olunmuşdur: müəyyən dövr üzrə (2001–2024) turizm gəlirləri və eyni dövr üzrə turizmə yönəlmiş investisiyalar (dövlət və ya özəl sektor üzrə). Hesablamada Pirson korrelyasiya əmsalı (r) istifadə olunur:

**Cədvəl 4.** Hesablamada istifadə olunan göstəricilər

| İllər | Göstəricilər | | | | |
|---|---|---|---|---|---|
| | Turagent və turoperatorların sayı, vahid | Turagent və turoperatorların əldə etdiyi gəlir, min manat | Mehmanxana (hotel) və mehmanxana tipli müəssislərin sayı, vahid | Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əldə etdiyi gəlir, min manat | İqtisadiyyata yönəldilən investisiyalar (xarici və daxili investisiyalar nəzərə alınmaqla): |
| 2001 | 18 | 0.0 | 93 | 2,3201.1 | 1454.5 |
| 2002 | 39 | 0.0 | 94 | 2,6129.7 | 2718.9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2003 | 50 | 2248.0 | 96 | 41770.5 | 4249.3 |
| 2004 | 58 | 4129.8 | 238 | 54326.5 | 5820.3 |
| 2005 | 81 | 6020.9 | 262 | 66510.9 | 6733.4 |
| 2006 | 96 | 8480.0 | 285 | 74342.4 | 7415.6 |
| 2007 | 117 | 15966.6 | 320 | 89785.3 | 10353.9 |
| 2008 | 123 | 17120.5 | 370 | 98584.2 | 13328.0 |
| 2009 | 124 | 17839.6 | 452 | 97002.9 | 10475.0 |
| 2010 | 126 | 19065.3 | 499 | 105888.8 | 14118.9 |
| 2011 | 141 | 22634.8 | 508 | 114686.1 | 17048.8 |
| 2012 | 170 | 27121.5 | 514 | 153980.9 | 20251.0 |
| 2013 | 197 | 29600.9 | 530 | 171255.9 | 21448.2 |
| 2014 | 218 | 31107.1 | 535 | 181047.3 | 21890.6 |
| 2015 | 243 | 36482.2 | 536 | 183055.1 | 20057.4 |
| 2016 | 272 | 36758,3 | 548 | 240112.7 | 22706.4 |
| 2017 | 339 | 41034.2 | 563 | 284453.9 | 24462.5 |
| 2018 | 374 | 56439.4 | 596 | 359453.0 | 25877.0 |
| 2019 | 432 | 63363.8 | 642 | 450188,5 | 24986.6 |
| 2020 | 300 | 16147.3 | 655 | 116798.0 | 22484.0 |
| 2021 | 150 | 22614.8 | 685 | 209687.3 | 25313.8 |
| 2022 | 240 | 53350.3 | 727 | 355322,1 | 29135.1 |
| 2023 | 300 | 78772.7 | 758 | 488828.0 | 32080.9 |
| 2024 | 381 | 166392.3 | 813 | 694162.2 | 33135.6 |

*Mənbə: DSK*

Turagent və turoperatorların əldə etdiyi gəlirlərlə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əldə etdiyi gəlirlərin cəmini hesablayaraq ***x*** verilәni, xarici və daxili investisiyalar nəzərə alınmaqla iqtisadiyyata yönəldilən investisiyalar isə ***y*** verilәni kimi yazırıq:

**Cədvəl 5.** Verilənlər

| İllər | Verilənlər | | | |
|---|---|---|---|---|
| | Turagent və turoperatorların əldə etdiyi gəlirlərlə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əldə etdiyi gəlirlərin cəmi, min manat (***x***) | | Xarici və daxili investisiyalar nəzərə alınmaqla iqtisadiyyata yönəldilən investisiyalar, min manat (***y***) | |
| 2001 | $x_1$ | 23201.1 | $y_1$ | 1454.5 |
| 2002 | $x_2$ | 26129.7 | $y_2$ | 2718.9 |
| 2003 | $x_3$ | 44018.5 | $y_3$ | 4249.3 |
| 2004 | $x_4$ | 58456.3 | $y_4$ | 5820.3 |
| 2005 | $x_5$ | 72531.8 | $y_5$ | 6733.4 |
| 2006 | $x_6$ | 82822.4 | $y_6$ | 7415.6 |
| 2007 | $x_7$ | 105751.9 | $y_7$ | 10353.9 |
| 2008 | $x_8$ | 115704.7 | $y_8$ | 13328.0 |
| 2009 | $x_9$ | 114842.5 | $y_9$ | 10475.0 |
| 2010 | $x_{10}$ | 124954.1 | $y_{10}$ | 14118.9 |
| 2011 | $x_{11}$ | 137320.9 | $y_{11}$ | 17048.8 |
| 2012 | $x_{12}$ | 181102.4 | $y_{12}$ | 20251.0 |
| 2013 | $x_{13}$ | 200856.8 | $y_{13}$ | 21448.2 |
| 2014 | $x_{14}$ | 212154.4 | $y_{14}$ | 21890.6 |
| 2015 | $x_{15}$ | 219537.3 | $y_{15}$ | 20057.4 |
| 2016 | $x_{16}$ | 276871.0 | $y_{16}$ | 22706.4 |
| 2017 | $x_{17}$ | 325488.1 | $y_{17}$ | 24462.5 |
| 2018 | $x_{18}$ | 415892.4 | $y_{18}$ | 25877.0 |
| 2019 | $x_{19}$ | 513552.3 | $y_{19}$ | 24986.6 |
| 2020 | $x_{20}$ | 132945.3 | $y_{20}$ | 22484.0 |
| 2021 | $x_{21}$ | 232302.1 | $y_{21}$ | 25313.8 |
| 2022 | $x_{22}$ | 408672.4 | $y_{22}$ | 29135.1 |
| 2023 | $x_{23}$ | 567600.7 | $y_{23}$ | 32080.9 |
| 2024 | $x_{24}$ | 860554.5 | $y_{24}$ | 33135.6 |

*Mənbə: DSK*

Cədvəldə verilmiş son 24 ilin statsitik göstəricilərindən istifadə edərək (*x*) və (*y*) verilənləri üzrə ədədi ortanı müəyyənləşdirmiş oluruq:

(*x*) üzrə ədədi orta $\bar{x}$=227219.32

(*y*) üzrə ədədi orta $\bar{y}$=17397.7

**Cədvəl 6.** Nəticə

| $x_i - \bar{x}$ | $(x_i - \bar{x})^2$ | $y_i - \bar{y}$ | $(y_i - \bar{y})^2$ | $(x_i - \bar{x})(y_i - \bar{y})$ |
|---|---|---|---|---|
| -204018.22 | 4.1610E+10 | -15943.2 | 2.5422E+08 | 3.2505E+09 |
| -201089.62 | 4.0430E+10 | -14678.8 | 2.1552E+08 | 2.9529E+09 |
| -183200.82 | 3.3580E+10 | -13148.4 | 1.7280E+08 | 2.4094E+09 |
| -168763.02 | 2.8490E+10 | -11577.4 | 1.3407E+08 | 1.9541E+09 |
| -154687.52 | 2.3930E+10 | -10664.3 | 1.1365E+08 | 1.6488E+09 |
| -144396.92 | 2.0830E+10 | -9982.1 | 9.9642E+07 | 1.4410E+09 |
| -121467.42 | 1.4750E+10 | -7043.8 | 4.9534E+07 | 8.5465E+08 |
| -111514.62 | 1.2440E+10 | -4069.7 | 1.6562E+07 | 4.5343E+08 |
| -112376.82 | 1.2620E+10 | -6922.7 | 4.7912E+07 | 7.7805E+08 |
| -102265.22 | 1.0450E+10 | -3278.8 | 1.0750E+07 | 3.3506E+08 |
| -89898.42 | 8.0786E+09 | -348.9 | 1.2170E+05 | 3.1380E+07 |
| -46116.92 | 2.1270E+09 | 2853.3 | 8.1412E+06 | -1.3160E+08 |
| -26362.52 | 6.9460E+08 | 4050.5 | 1.6407E+07 | -1.0670E+08 |
| -15064.92 | 2.2700E+08 | 4492.9 | 2.0190E+07 | -6.7673E+07 |
| -7682.02 | 5.9000E+07 | 2659.7 | 7.0736E+06 | -2.0420E+07 |
| 49651.68 | 2.4650E+09 | 5308.7 | 2.8182E+07 | 2.6371E+08 |
| 98268.78 | 9.6560E+09 | 7064.8 | 4.9900E+07 | 6.9401E+08 |
| 188673.08 | 3.5600E+10 | 8479.3 | 7.1912E+07 | 1.5984E+09 |
| 286333.08 | 8.1980E+10 | 7588.9 | 5.7582E+07 | 2.1738E+09 |
| -94274.02 | 8.8880E+09 | 5086.3 | 2.5870E+07 | -4.7947E+08 |
| 5082.78 | 2.5830E+07 | 7916.1 | 6.2634E+07 | 4.0210E+07 |
| 181453.08 | 3.2930E+10 | 11737.4 | 1.3768E+08 | 2.1284E+09 |
| 340381.38 | 1.1580E+11 | 14683.2 | 2.1550E+08 | 5.0003E+09 |
| 633335.18 | 4.0140E+11 | -15943.2 | 2.4759E+08 | 9.9686E+09 |

$\sum_{24} (x_i - \bar{x})^2 = 9.390E+11$, $\sum_{24} (y_i - \bar{y})^2 = 2.0639E+9$, $\sum_{24} (x_i - \bar{x}) (y_i - \bar{y}) = 3.717E+10$

**r** Hesablanması:

$$r = \frac{\sum(x_i - \bar{x})(y_i - \bar{y})}{\sqrt{\sum(x_i - \bar{x})^2 \sum(y_i - \bar{y})^2}} = \frac{3.717E + 10}{4.402E + 10} = 0.844$$

Aşağıdakı düsturdan istifadə edərək korrelyasiya t dəyərini (test statistikası) hesablayaq:

$$t = \frac{r}{\frac{\sqrt{1 - r^2} -}{\sqrt{(n-2)}}} = \frac{0.844}{0.114} \approx 7.38$$

Korrelyasiya əmsalının əhəmiyyətliliyinin yoxlanılması məqsədilə həyata keçirilən t-testinin nəticələrinə əsasən, (t = 7.38) dəyişənlər arasında olan əlaqənin statistik baxımdan əhəmiyyətli olduğu və müşahidə edilən əlaqənin təsadüfi xarakter daşımadığını göstərir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qeyri-neft sektorunun inkişafını əsas prioritet sahəyə çevirən Azərbaycanda regionların maliyyə dayanıqlılığının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Turizm bu məsələnin həllində əsas alətlərdən biri kimi çıxış ediəcək. Turizmin inkişafı baxımından böyük potensiala sahib Balakən rayonunda ölkə turizminin maliyyə dayanıqlılığına təsirini öyrənmək üçün 2001-2024-cü illər ərzində Azərbaycanda fəaliyyət göstərən turagent və turoperatorların, eləcə də mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əldə etdiyi gəlirlər və ölkə iqtisadiyyatına həmin dövr ərzində yönəldilmiş xarici və daxili investisiyalar arasında əlaqənin tapılması üçün Pirson korrelyasiya təhlili aparılmışdır.

Aparılmış korrelyasiya təhlili nəticələri göstərir ki, dəyişənlər arasında (X və Y) statistik cəhətdən əhəmiyyətli və müsbət əlaqə mövcuddur ($r = 0.844$, $p < .001$). Bu nəticə ondan xəbər verir ki, turizm gəlirləri ilə regionların maliyyə dayanıqlılığı arasında qarşılıqlı asılılıq yüksəkdir. Başqa sözlə, turizm sektorunda əldə olunan gəlirlərin artımı Balakən rayonunun maliyyə sabitliyini və iqtisadi dayanıqlılığını gücləndirən əsas amillərdən biridir. Bu isə maliyyə dayanıqlılığının artmasında turizmin perspektivinin yüksək olmasının nümunəsidir.

Turizmin regional maliyyə dayanıqlığına təsirinin gücləndirilməsi üçün aşağıdakı üç əsas təklifin verilməsi məqsədəuyğun hesab olunur:

1. Turizmin gəlirlərinin artırılması ilə regionların maliyyə sabitliyinin yaxşılaşdırılması; bunun üçün hər bir regionda turizm infrastrukturu gücləndirilməli, insan resurslarının gücünün artırılması üçün təlim və sertifikatlaşdırma proqramları həyata keçirilməlidir.

2. Turizm sahəsinə dövlət və özəl investisiyalarının artırılması; bunun üçün turizmdən əldə edilən gəlirlərin maliyyə monitorinqi sistem tətbiq olunmalı və şəffaflıq artırılmalıdır.
3. Özəl investisiyaların yatırılması üçün regionalarda cəlbediciliyin artırılması; bunun üçün özəl sektoru turizmə cəlb edən vergi güzəştləri və investisiya stimullaşdırma sistemi yaradılmalıdır.

# ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik Bülleten. Bakı: Avqust 2025, №08, 305, s.4-5.
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 02 fevral 2021, Bakı, Azərbaycan, https://president.az/az/articles/view/50474
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan Regionları. Statistik məcmuə. Bakı: 2024, 848 s.
4. Bakalo, Nadiya Makhovka, Viktoriia & Krekoten, Iryna & Glebova, Alla & Kulakova, Svitlana. (2025). Local tourism as financial and economic development driver of the community: Management aspect. World Development Perspectives. 38. 100693, https://doi.org/10.1016/j.wdp.2025.100693
5. Balaguer, J., & Cantavella-Jordá, M. (2002). Tourism as a long-run economic growth factor: The Spanish case. *Applied Economics*, 34(7)
6. Benesty, J., Chen, J., Huang, Y. and Cohen, I. (2009) Pearson Correlation Coefficient. In: Noise Reduction in Speech Processing, Springer, Heidelberg, https://doi.org/10.1007/978-3-642-00296-0_5
7. Chip, Liudmyla & Rudych, Alla. (2025). Fınancıal stabılıty of tourısm enterprıses ın the context of post-crısıs recovery and adaptıve mechanısms of economıc development. Social Development: Economic and Legal Issues, https://doi.org/10.70651/3083-6018/2025.12.02
8. Doshan, A. & Isahkova, Zh & Aidarov, D.. (2025). Monitoring and improvement of financial processes in the tourism and hospitality industry. Bulletin of the international university of tourism and hospitality. 7, 10.62867/3007-0848.2025-1.06.
9. İmrani, Zaur & Zeynalova, Kamala & Babakhanov, Aslan. (2025). Investment dependence of tourism industry and differences in economic growth in the Republic of Azerbaijan. Geojournal of tourism and geosites. 61, https://doi.org/10.30892/gtg.61325-1535
10. Garakanidze, Zurab & Gegeshidze, Eka & Maghradze, Nino. (2024). Access to Financial Resources for the Tourism Sector Across the European Countries. Economics. 106. https://doi.org/10.36962/ECS106/11-12/2024-55
11. Obi, Pat & Addae-Ankrah, Kwaku & Sarpong-Kumankoma, Emmanuel. (2025). Do Financial Development and Exchange Rates Drive the Tourism–Growth Relationship?. International Journal of Financial Studies. 13. 59, https://doi.org/10.3390/ijfs13020059
12. Samimi, Ahmad & Sadeghi, Somaye. (2013). The relationship between foreign direct investment and tourism development: Evidence from developing countries. Institutions and Economies. 5.
13. Sharpley, R., & Telfer, D. J. (2014). *Tourism and Development: Concepts and Issues* (2nd ed.). Channel View Publications. International Finance Corporation
14. Seyfullalı Javid. Fiscal policy challenges in the resource-rich countries. Scientific-analytical journal "Economic reforms" № 1(10), Baku, Azerbaijan, https://doi.org/ 10.30546/2790-2196.1.10.2024.055.

15. Şəmşad, Əlizadə & Novruzov, Nicat. (2024). Azərbaycanda Turizm Sektorunun İnkişafının Maliyyə Proqnozlaşdırılması Problemləri. Tourism and Hospitality Studies, https://doi.org/13.10.61226/12.2.2023/20241.1
16. Timothy, Dallen. (2018). Cooperation, border tourism, and policy implications, https://doi.org/10.4324/9781315162928-9
17. Zelenska, Olena & Rusnak, Denys. (2024). Financial instruments for innovative development of tourism infrastructure in Ukraine. Problems and Prospects of Economic and Eanagement, https://doi.org/10.25140/2411-5215-2024-4(40)-257-266
18. https://www.stat.gov.az/ - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı
19. http://balaken-ih.gov.az/az/2023-cu-il-uzre-hesabat.html - Balakən Rayon İcra Hakimiyyətinin 2023-cü ildə rayonda görülmüş işlər barədə Hesabat

# IMPACT OF TOURISM ON THE FINANCIAL SUSTAINABILITY OF AZERBAIJAN REGIONS

**Polad Orujov**

**Summary**

The article analyzes the mechanisms of influence of tourism development on the financial stability of the Balakan administrative region of the Republic of Azerbaijan. Correlation analysis was used to study the relationship between the budget revenues of Azerbaijan, the income of the tourism sector and the volume of public and private investment. The main objective of the study was to analyze the impact of tourism on economic growth, the role of tourism in the diversification of budget revenues of the Balakan region, as well as the interdependence of public and private investment and regional financial stability. The results of the study show a positive correlation between public and private investment in tourism and tourism revenues in Azerbaijan, and these variables are generally the main economic factors determining the financial stability of regions. The analysis conducted on the example of the Balakan region demonstrates that the sustainable development of tourism, which occupies a significant share in the structure of local economic revenues, has a direct impact on the growth of both budget revenues and private capital. The rapid development of tourism should be considered one of the important strategic trends capable of stimulating the economic growth of Balakan, one of the regions of Azerbaijan with great tourism potential, and ensuring budget stabilization.

**Keywords:** Balakan, tourism, financial sustainability, investment, budget revenues, sustainable development.

**Məqalə redaksiyaya daxil olub: 15.12.2025**

**Təkrar işlənməyə göndərilib: 07.01.2026**

**Çapa qəbul olunub: 26.01.2026**